Azərbaycan.- 2021.- 1 aprel. S. 7.

# Azərbaycan millisi yenə xalsız qaldı

## Türkiyə lider oldu



**Azərbaycanın futbol üzrə milli komandası 2022-ci ildə Qətərdə keçiriləcək Dünya çempionatının seçmə mərhələsində Bakı Olimpiya Stadionunda Serbiyaya qarşı növbəti oyununda da xal qazana bilmədi.**

İtaliyalı mütəxəssis Canni de Byazinin yetirmələri ilk ev qarşılaşmasında matça bu heyətlə çıxmışlar: 12. Şahruddin Məhəmmədəliyev, 15. Bədavi Hüseynov, 14. Elvin Bədəlov, 18. Anton Krivotsyuk, 5. Maksim Medvedev (k), 3. Azər Salahlı, 13. Abbas Hüseynov, 20. İsmayıl İbrahimli, 8. Emin Mahmudov, 7. Anatoli Nuriyev, 9. Əli Qurbani.

Serblərin ən təhlükəli hücumçusu Aleksandar Mitroviç 16-cı dəqiqədə hesabı açdı. Oyunun ilk yarısı qonaqların üstünlüyü ilə keçsə də, qapıçımızın etibarlı çıxışı balkanlıların hesabı artırmasına imkan vermədi. 29-cu dəqiqədə isə Əli Qurbani yaranmış əlverişli fürsəti boşa verdi.

Fasilədən sonra yığmamız xeyli fəallaşdı və serb müdafiəci Filip Kostiçin Emin Mahmudova qarşı kobud hərəkətindən sonra israilli hakim Roy Reynşreyber qonaqların qapısına penalti təyin etdi. Zərərçəkən özü 11 metrlik cərimə zərbəsini ustalıqla qola çevirib hesabı bərabərləşdirdi - 1:1.

Bundan sonra millimiz bir daha fərqlənmək şansı qazansa da, Anatoli Nuriyev həmin imkandan yararlana bilmədi. Əvəzində isə Aleksandar Mitroviç 81-ci dəqiqədə dublunu gerçəkləşdirib. Bu, onun cari mərhələdə 5-ci qolu idi.

İkinci hissədə meydançaya çıxan Mahir Əmrəli, Ramil Şeydayev,Təmkin Xəlilzadə və Elvin Cəfərquliyev oyunda dönüş yarada bilmədilər. Beləliklə, gərgin mübarizə şəraitində keçən görüş Serbiya millisinin 2:1 hesablı qələbəsilə başa çatdı.

Seçmə mərhələyə Portuqaliya millisinə 0:1 hesablı məğlubiyyətlə başlayan yığmamız A qrupunda qeyri-rəsmi oynayan Qətərə də 1:2 hesabı ilə məğlub olmuşdu. Beləliklə, hazırda komandamız sonuncu pillədə yer alıb.

Qeyd edək ki, qrupda turun digər görüşündə Lüksemburq Portuqaliyaya məğlub olub - 1:3. 3 turdan sonra Portuqaliya və Serbiya hərəyə 7 xalla qrupda 1-2-ci yerlərdə qərarlaşıb.

Bu arada Türkiyə millisi DÇ-2022-nin seçmə mərhələsində növbəti oyununu keçirib. Avropa zonasının G qrupunda yer alan qardaş ölkənin təmsilçiləri 3-cü turda Latviya ilə görüşüb. Matçın ikinci yarısında 2 top fərqilə irəlidə olan türklər üstünlüyü sonadək qoruya bilməmiş və görüş heç-heçə başa çatmışdır - 3:3.

İlk iki turda Niderlandı 4:2 və Norveçi 3:0 hesabı ilə məğlub edən Şenol Günəşin yetirmələri xal hesabını 7-yə çatdıraraq qrupda liderliyi ələ keçirib.

Növbəti turun matçları sentyabrda keçiriləcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***